Tarix və onun problemləri, №1-2 2009

**RAUF HƏSƏNOV**
*BDU-nun Türk və Qafqaz xalqları tarixi kafedrasının aspirantı*

# GÜRCÜ – OSETIN MÜNAQIŞƏSI

Avropa ilə Asiyanın kəsişdiyi bir nöqtədə yerləşən Qafqaz regionu əsrlər boyu iri dövlətlərin maraq dairəsində olub. Mədəni-siyasi baxımdan Qafqazı Avropa ilə Asiya arasında körpü kimi qiymətləndirmək olar ki, o da öz növbəsində Gürcüstan üzərindən keçməkdədir. Bu isə onun strateji əhəmiyyəti daima artırmışdır və burada hər zaman iri dövlətlərin maraqların toqquşmasına səbəb olmuşdur. İri dövlətlərin maraqlarının toqquşması müxtəlif təzahürləri ilə Qafqazın düzəninə zaman-zaman öz mənfi təsirini göstərmişdi. Ən başlıcası isə iri dövətlərin regional maraqlar toqquşması Qafqaz xalqları arasında əlaqələrdə əksini tapmış, eyni zamanda separatizm və milli münaqişələr vüsət almışdı.

Transqafqazın separatçılıq problemi ilə üzləşmiş olan ölkələrindən biri də Gürcüstandır. Gürcüstanda baş qaldıran separatçılıq hərəkatının nədən qaynaqlandığını anlamaq üçün onun ərazisində milli münasibətlərin tarixinə nəzər salmaq zəruridir. Çünki bəzən milli münaqişələrdə üçüncü tərəf faktorunun bilinməsini istəməyən qüvvələr milli münaqişələrin tarixilik amilini qabartmaqla separatçılığa haqq qazandırmağa çalışırlar. Bu cür davranış çox zaman separatçıları bu və ya digər şəkildə dəstəkləyən Rusiya elmi siyasi dairələri üçün səciyyəvidir. Əslində tarix onu göstərir ki, milli münasibətlərdə qarşısı alına biləcək gərginlik yalnız üçüncü amilin təsiri ilə separatizm halına gəlmişdir.

Gürcüstan təlatümlərlə dolu bir tarixi 1980-cı illərdə yenidən təkrarlandı. Belə ki, bu zaman SSRİ-də baş verən hadisələr Gürcüstandan da yan keçmədi. Sonda 1991-ci il aprelin 9-da Gürcüstan öz müstəqilliyini elan etsə də,(3, 16) müstəqilliyin ardınca Cənubi Qafqazın bu gənc dövləti bir sıra problemlərlə üzləşdi. Onlardan biri də Cənubi Osetyada alovlanan separatizm meylli münaqişə oldu.

Gürcü-osetin münasibətləri qədim tarixə malikdir. Bu iki xalq arasında münasibətlər IX-XII əsrlərdə siyasi və hərbi səbəblərlə əlaqədar intensivlənmişdir. XI əsrdən Gürcüstan və Osetiyanın hakim dairələri arasında əlaqələri möhkəmləndirmək məqsədilə orta əsrlərdə tərəflərin qarşılıqlı dəstək və əməkdaşlığını təmin edən sülalə nigahları sürətləndi. Məsələn, I Georgiy (1014-1027) Osetin şahzadəsi Aldayla evlənmişdi; onun qardaşı IV Baqrat (1027-1072) osetin çarının qızı Dorqolelinin bacısı ilə evləndi. XI əsrdə tərtib edilmiş gürcü yazılı mənbələri e.ə I minilliyin 2-ci yarısından başlayaraq, xüsusilə yadelli işğalçılarla birgə mübarizədə ifadə olunan gürcü-osetin siyasi və hərbi əməkdaşlığı haqda məlumat verir.XI əsr gürcü tarixçisinin verdiyi məlumata görə gürcülər müstəqilliyə e.ə III əsrdə eqris ve osetinlərin köməyilə nail oldular. (1,22)

Osetinlər əsasən Şimali Qafqazda məskunlaşmışdılar. Əksəriyyət etibarilə xristian idilər. Lakin onların bir qismi sonradan islamı qəbul etmişdi. Həmin hissə isə özlüyündə separat çıxışlarda elə də fəal iştirak etmədi. Çünki bu etnoqrafik qrupun osetinlər arasında öz mövqeləri belə arzu olunan deyildi.

Osetinlərin cənuba doğru intensiv hərəkəti isə monqol işğalları ilə bağlı olmuşdur. Monqollardan qorunmaq məqsədi ilə osetinlərin bir hissəsi düzən ərazilərdən Gürcüstanın uca dağlıq ərazilərinə mühacirət etmişdilər. Osetinlər Qafqazın digər xalqları ilə yanaşı, Gürcüstanda vahid feodal monarxiyasının qurulmasında fəal iştirak etmişlər. XII əsrin əvvəllərindən osetinlər Gürcüstandan vassal asılılığa keçmişdir. XIII əsrin sonunda Gürcüstanda məskunlaşmış osetinlər feodal Gürcüstanın tərkibinə onun bir

hissəsi kimi daxil oldular. Şərqi Gürcüstanın şimal rayonlarında öz tarixi taleyini gürcü xalqının tarixi ilə sıx bağlayan cənub–osetin etnik qrupunun rüşeymi olan daimi osetin əhalisi formalaşdı. XIV əsrin sonundakı hadisələrdə osetinlərin dağ gürcü tayfaları ilə birlikdə Gürcüstanın sakinləri kimi adı çəkilir.

XVIII əsrin 70-ci illərində Kartlidə osetinlər daha da çoxaldılar. 1850-ci ildən osetinlərin Şido Kartliyə kütləvi miqrasiyası başlandı. Maraq doğuran məqamlardan biri də bundan ibarətdir ki, osetinlər Rusiya ilə bu dövlət Qafqaza irəliləyəndən onunla daim müttəfiqlik münasibətlərində olmuşlar. Burada bir qədər dəqiq ifadə etsək osetinlərin xristian hissəsi rusların müttəfiqliyini qəbul etmişdi. Müsəlman osetinlər isə Qafqaz dağlılarının antirus hərəkatında fəal iştirakçı olmuşdular. Qeyd olunan dövr isə Rusiyanın bölgədə möhkəmlənməsi ilə əlamətdardır. Rusiya bölgə xalqlarını öz maraqlarına uyğun olaraq miqrasiyaya təhrik edirdi. Burada müəyyən imperiya maraqları vardı. Təhrik olunan miqrasiya milli münasibətlərin xaricdən idarə olunmasına zəmin kimi çıxış edə bilirdi. (2, 102-111)

1873-1886-ci illərdə Gürcüstanın dağlarında məskunlaşan osetinlər dağlardan düzənlərə üz tutdular. Gürcüstanın Telavi, Tianeti, Borçalı və Şorapan qəzalarında osetinlər çoxaldı. XIX əsrin 90-cı illərində miqrasiya bir qədər dayanır. Çünki Gürcüstanda vəba epidemiyası vüsət almışdı. Artıq XX əsrin əvvəllərinə doğru osetinlər bütün Gürcüstan ərazisinə yayılırlar. XX əsrin müxtəlif dövrlərində Gürcüstanda aparılmış siyahıyaalmalar osetinlərin say dəyişmələrini ortaya qoymaqdadır. 1926-cı ildə osetinlər Gürcüstan əhalisinin 4,3%-ni, 1936-cı ildə isə 4,2%-ni təşkil etməkdə idilər.

Statistik hesablamalar onu göstərir ki, XX əsrin 20-30-cu illərində Gürcüstanda yerli gürcü əhalisinin sayı azalmağa başladı. Məsələn 1922-ci ildə gürcülər əhalinin 74,7%-ni təşkil edirdilərsə, 1926-cı ildə bu rəqəm 70,9%-ə düşmüşdü. 1936-cı ildə rəqəm bir qədər də aşağı düşərək 64,6%-ə enmişdi. Yerli gürcü əhalisinin azalmasının bir sıra səbəbləri vardı. Onlardan biri də gürcülərdə təbii artımın zəifləməsi idi.

Əvvəlcə Çar Rusiyası, sonra isə Sovet Rusiyası gürcülərin sayının azaldılması siyasətini yürüdürdü. Bu isə gürcü əhalisinin narazılıqlarına səbəb olurdu. Gürcülərin iqtisadi-siyasi maraqlarının təminatında çətinliklər yaranırdı. Lakin mərkəzi hakimiyyət köçkünlərə hər cür güzəştlər edirdi. Rus hakimiyyətinin bu cür yanaşması gürcülərlə osetinlər arasında toqquşmalara gətirib çıxarırdı. Gürcülər özləri ilə müqayisədə osetinlərə fərqli münasibətin göstərilməsinə qısqanc yanaşırdılar. Rusiyanın bu siyasətində məqsəd Cənubi Qafqazda xalqların mərkəzə qarşı birləşməsinin qarşısını almaq idi.

1922-ci ilin 20 aprelində Cənubi Osetyaya Gürcüstan SSR-in tərkib hissəsi olaraq Muxtar Vilayət statusu verildi. Amma Şimali Osetyada isə vəziyyət tamamilə əks istiqamətdə inkişaf etdi. Belə ki, artıq 1936-cı ildə Şimali Osetya MSSR statusu aldı.(3, 18). Şimali Osetiyaya muxtar respublika statusu verilməsi Cənubi Osetiya separatçıları üçün bir potensial bəhanə idi. Lakin gürcülər hətta bu cür statusa belə razı deyildilər. Gürcüləri xüsusilə Sxinvalinin və onun yaxınlığındakı kəndlərin Cənubi Osetiyaya verilməsi qıcıqlandırdı. 1923-cü ildə gürcüləri narahat edən daha bir addım atıldı. Cənubi Osetiya daxilində dövlət dili osetin dili elan olundu.

Beləliklə sovet dönəmində gürcülərlə osetinlər arasında münasibətlər dəyişik olmuşdur. Bu münasibətlər gah dinc yanaşı yaşama formasında, gah da münaqişə və qarşıdurmalarla təzahür etmişdir. Sovet milli siyasətində maraqlı bir nüans bu münasibətlərdəki dəyişmələrə bilavasitə təsir etmişdir. SSRİ-nin mövcudluğu zamanında milli münaqişələr nəzarət olunacaq həddə qədər Moskva tərəfindən "rəğbətləndirilirdi". Dövləti zəiflədəcək həddə çatdıqda isə müdaxilə olunurdu. Çünki sovet hakimiyyətinə onun qüdrətinə təsir edən deyil, daxili narazılıqları zəiflədən münaqişələr lazım idi. Lakin SSRİ-nin süqutuna doğru vəziyyətdə dəyişikliklər baş verdi. Xarici qüvvənin dəs-

təklədiyi osetin separatizmi Gürcüstan üçün müşkül bir məsələ kimi yenidən gündəmə gəldi. Müasir tarixdə Cənubi Osetyada baş verən hadisələrin başlangıcı 1989-cu ilə gedib çıxır. Cənubi Osetiya osetinlərinin separat təbliğata uymalarının bir sıra səbəbləri vardır. Belə ki, Şimali Osetiya Rusiyanın tərkibində daha geniş statusa malik olmuş və buna görə iqtisadi inkişafına görə cənubdan çox irəliyə getmişdi. Burada məqsədli siyasətin izləri də özünü göstərirdi. Cənubi Osetiya separatçıları cənub və şimal arasındakı bu fərqlərdən öz məqsədləri üçün istifadə edirdilər. Həmin il Cənubi Osetyada yaranan "Xalq cəbhəsi" ilk öncə Muxtar Vilayətin statusunun daha da genişləndirilərək Muxtar Respublika edilməsi tələbi ilə çıxış etsə də, sonradan Şimali Osetya ilə birləşmək tələbləri də oldu. 26 aprel 1990-cı ildə SSRİ AS muxtariyyətlərin statusunun artırılmasına dair qərar qəbul etdi. Bu hər yerdə olduğu kimi osetin separatçılarını da cəsarətləndirildi. Mərkəzi sovet hökuməti mərkəzdənqaçma meyllərinin önlənməsi üçün müttəfiq respublikalarının öz daxillərində separatçılıq ocaqları formalaşdırırdı. Cənubi Osetiya separatçıları özlərinə milli müqavimət siması qazandırmaq üçün siyasi cəhətdən təşkilatlanmaq və muxtar parlamentlərə seçkilərdə iştirak etmək qərarına gəlmişdilər. Yerli partiyaların separat ideya daşıyıcısı olduğunu bilən Gürcüstan Ali Soveti onların parlament seçkilərində iştirakını qadağan edən qərar qəbul etdi. Bunun ardınca isə 1990-cı il sentyabrın 20-də öz müstəqilliyini elan etdi və "Cənubi Osetya Demokratik Sovet Respublikasını" elan etdi. Həmin ilin dekabrında Cənubi Osetiyada Gürcüstanın izni olmadan Ali Sovetə seçkilər keçirildi. Buna qədər 10 oktyabr 1990-cı ildə sovet hökuməti Cənubi Osetiyada fovqaladə vəziyyət elan etmişdi. Separatçıların fəaliyyətinə cavab olaraq Gürcüstan Cənubi Osetiyanın muxtariyyətini 11 dekabrda ləğv etdi.

Artıq münaqişə radikal qərarlar mərhələsinə keçmişdi. Gürcüstan hakimiyyəti başda prezidet Z.Qamsaxurdiya olmaqla osetinlərin separatizminə kəskin reaksiya göstərdi. Ümumiyyətlə demək lazımdır ki, osetinlərdə separatizm meyllərinin yaranması heç də müsbət hal deyildi. Lakin burada nəzərə çardırılmalı olan bir məsələ var ki, o da Z.Qamsaxurdiyanın şovinizmi dövlət siyasəti səviyyəsinə gətirməsi idi. Məhz onun zamanında Gürcüstanda "Gürcüstan gürcülər üçün şüarı səslənməyə" başlamışdı. Qamsaxurdiya bir siyasi dissident keçmişinə malik olduğu üçün ilk əvvəl xalqı qarşısında yaxşı durumda idi.

Hadisələrin bu səpkidə inkişafı isə 1991-ci ilin əvvələrində hərbi əməliyyatlara gətirib çıxardı. 6 yanvar 1991-ci ildə gürcü milisinin dəstələri Cənubi Osetiyaya daxil oldu. Gürcü tərəfinin radikal qərarları sırasına osetinlərin rəhbəri T.Kulumbeqovun həbsi də vardı. Osetinlər gürcülərin bu hərəkətindən sonra 17 mart 1991-ci il referendumunda SSRİ-nin saxlanılmasına səs verərək gürcülərin müstəqillik mövqeyinə müxalifət etdilər. Bir gün sonra isə osetinlər tərəfindən günahsız 4 gürcü kəndlisinin öldürülməsi vəziyyəti bir qədər də çətinləşdirildi.(4) Gürcülər kütləvi şəkildə öz doğma yerlərindən qovulmağa başladılar.

Münaqişə özünün silahlı toqquşma fazasına qədəm qoydu. Gürcüstan Cənubi Osetiyaya hərbi birləşmələr göndərdi. Gürcü hərbi birlikləri Sxinvaliyə qədər irəlilədilər. Amma hərbi əməliyyatların gedişində istər "Qafqaz Dağlıları Konfederasiyası", istərsə də Rusiya Osetinlərə yardım göstərdi. Rusiyanın hərbi yardımı hətta o dərəcə də kobud oldu ki, 1992-ci ilin iyununda Rusiya baş naziri Rutskoy rus aviasiyasına gürcü birləşmələrini atəşə tutmaq əmri verdi. Eyni zamanda Gürcüstan prezidenti E.Şevarnadzeyə zəng edərək Tsxinvalidən çıxılmayacağı təqdirdə Tbilisinin bombalanacağı təhdidini dilə gətirdi. Belə olan təqdirdə gürcülər ərazi bütövlüyünü silah gücünə bərpa edə bilməyərək Sozi razılaşmasına getmyə məcbur oldular. Danışıqların başlanmasının gürcü tərəfi üçün də xeyri oldu. Ən azı ona görə ki, Gürcüstan iki cəbhədə separatçılarla mübarizə aparacaq qüvvəyə malik deyildi.

Münaqişənin silahlı fazası 24 iyun 1992-ci ildə Soçi şəhərində atəşkəs haqqında razılıq əldə olunana qədər davam etdi. Danışıqlarda Gürcüstan, Şimali və Cənubi Osetya və Rusiya nümayəndələri iştirak etdilər. Həmin sazişin şərtlərinə əsasən 28 iyun 1992-ci il tarixindən tərəflər atəşi dayandırmalı idilər. ( 5,31.)

14 sentyabr 1993-cü ildə Cənubi Osetiyanın iqtisadi infrastrukturunun bərpası ilə əlaqədar Rusiya-Gürcüstan hökumətlərarası sazişi imzalandı. Həmin sazişdə planlaşdırılırdı ki, 1993-1997-ci illər ərzində hər iki tərəf Cənubi Osetiyanın bərpa edilməsi üçün vəsait ayıracaq. Lakin faktiki olaraq bu saziş yerinə yetirilmədi. Osetin tərəfi gürcüləri vəsait ayırmamaqda ittiham etdi. Ancaq faktiki olaraq Gürcüstanın o zamankı iqtisadi durumu bu vəsaitlərin ayrılmasını imkansız edirdi. Bu sazişdən 7 il keçdikdən sonra Rusiya və Gürcüstan arasında analoji bir saziş imzalansa da onun aqibəti birincidən heç nə ilə seçilmədi.( 6 )

1994-cü ildə gürcü-osetin münaqişəsində fəaliyyət göstərən sülhməramlıların əsasnaməsi təsdiqləndi. Əsasnamədə maraq doğuran və Rusiyanın hələ də nəzarəti əlində saxladığını göstərən o idi ki, qarışıq qüvvələrin komandanı Rusiyadan olmalı idi. Hərbi müşahidəçilər də birbaşa ona tabe idi. Qarışıq qüvvələrin fəaliyyət dairəsinə bütün nəzarətsiz hərbi birləşmələrin tərkisilahı da daxil idi. Həmçinin bu qüvvələr münaqişə zonasına silah, sursat və partlayıcı maddələrin gətirilməsinin qarşısını almalı idilər. Nizamlama zonasında qulluq edən qarışıq hərbi qüvvələr polis orqanlarına cinayətkarlıqla mübarizədə də kömək edə bilərdilər. Əsasnamə bu qüvvələrə münaqişə zonasında nəzarətsiz cinayətkar qüvvələri məhvetmə səlahiyyəti də verirdi. Nizamlama qüvvələrinin təşkilati-ştat strukturu QNT tərəfindən təkil edilirdi. Qarışıq qüvvələrdə intizam pozuntularının həlli üçün hər tərəfdən iki nümayəndə olmaq şərti ilə birləşmiş prokurorluq formalaşdırılırdı.( 7)

1994-cü ilin oktyabrında QNT üzvləri yığışaraq onun fəaliyyətinin davam etdirilməsi niyyətini ifadə edən əsasnamə qəbul edirlər.(8) Burada həmçinin QNT-nin inkişaf etdirilməsinə dair təkliflər yer alır. Bu təkliflər arasında ən başlıcası QNT-nin daimi bir mexanizmə çevrilməsi istəyi idi. Bütün bu təkliflərin kağız üzərində qalmasının səbəbi isə tərələrin qeyri-səmimiliyində idi.

1995-ci ilin oktyabrında Şimali Osetiyanın paytaxtında gürcü, Rusiya və hər iki osetin tərəflərinin və ATƏT-in də nümayəndələrinin də iştirakı ilə protokol imzalandı. 1996-cı ilin mayında gürcü və Cənubi Osetiya tərəfi RF-nin vasitəçiliyi, Şimali Osetiyanın və ATƏT-in nümayəndələrinin iştirakı Memarandum imzaladılar. Bu sənədlərin imzalanmasında vasitəçi kimi iştirak edən Rusiya əslində gürcülərin çıxılmazlığından istifadə edirdi. Digər tərəfdən Şevarnadzenin hələ də ruslara müəyyən ümidlər etməsi, həmçinin Qərbə elə də inanmaması da öz sözünü deyirdi.

2003-cü ildə Gürcüstanda baş verən "Narıncı inqilabdan" sonra vəziyyət daha da gərginləşdi. Belə ki, M. Saakaşvili hakimiyyətinin yürütdüyü Qərb yönümlü siyasət və NATO-nun şərqə doğru genişlənməsi Rusiya hakim dairələrini narahat etməyə bilməzdi. Rəsmi Moskvanın Cənubi Qafqazdakı maraqlarını müdafiə etmək üçün bütün mümkün vasitələrdən istifadə etməsi labüd məsələ idi. Bu isə danışıqlar prosesinin pozulması ilə nəticələnirdi. Hətta çıxışlarının birində Gürcüstan Prezidenti M.Saakaşvili bildirmişdir ki, "Cənubi Osetyadan fərqli olaraq Abxazya Rusiya generalları üçün daha qiymətlidir. Belə ki, burada onlara məxsus bağlar var." (9, 184). Saakaşvilinin qərbyönlü mövqeyi və bu mövqeyin açıq dəstək görməsi gürcüləri bir qədər cəsarətləndirdi. Gürcüstan prezidenti rusların əslində bu muxtar qurumları ilhaq etmək fikrində olduğunu açıq şəkildə bəyan etməyə başlamışdı. Həqiqətən də bu belə idi. Cənubi Osetiyanın və Abxaziyanın sakinlərinə Rusiya vətəndaşlıqlarının verilməsi əslində Rusiyanın planlarından xəbər verirdi. Ruslar ilk əvvəl Saakaşvilnin mövqeyində dəyişikliklər et-

məyə çalışsalar da onun qərb meylinin güclü olduğunu görüb başqa bir yol seçdilər. Onlar separatçılara siyasi və diplomatik dəstəklərini artırdılar.

31 may 2004-cü ildə Qərbin dəstəyini hiss edən Gürcüstan prezidenti osetin-gürcü münaqişə zonasına daxili qoşun birləşmələrini göndərdi. 2004-cü ilin iyul ayında münaqişə zonasında atəşkəs tez-tez pozulmağa başlayır. Gürcüstan prezidenti öz çıxışlarında Rusiyanı separatçıların hərəkətinə cəsarət verməkdə ittiham edir. 9 avqust 2004-cü ildə Moskvaya Gürcüstan müdafiə naziri Georgiy Baramidze və münqişələrin nizamlanması naziri Georgiy Xaindrava səfər edirlər. Bu səfərdə əsas məqsəd Gürcüstanın mövqeyini Rusyaya çatdırmaq, gərginliyi azaltmaq və Rusiyanı separatçılara dəstək verməyə son qoymağa çağırmaq idi. Gürcülər rusları osetinlərin hazırlanmasında ittiham etməklə bərabər rusların gürcü hava məkanını pozması fikrini ortaya gətirirdilər. 9-10 avqust tarixlərində artıq artilleriya silahlarının səsləri eşidilir. Gürcülərin dediyinə görə ruslar sülhməramlı missiyasını bir qırağa qoyaraq osetinlərlə bərabər gürcü kəndlərini atəşə tuturdular. Saakaşvili Rusiyanın nizamlamadakı neytrallığına etibar etmədiyi üçün Krıma səfər edir və Ukrayna prezidenti Kuçmadan vasitəçi olmağı istəyir. Bununla bərabər münaqişə zonasına gürcü qoşunlarının cəmlənməsi prossesi müşahidə olunur. 12 avqust 2004-cü ildə Tbilisidə çıxış edən Saakaşvili dünya ölkələrini Gürcüstan ərazisinə üçüncü dövlətin müdaxilə etməsinə imkan verməməyə çağırır. Bununla belə gürcülər rusların da iştirakı ilə danışıqları davam etdirirdilər. 14 avqustdan 15-nə keçən gecə gürcü tərəfdən Zurab Jvaniya osetin tərəfdən Eduard Kokoytı atəşin dayandırılması haqqında razılaşma imzalayırlar. 1992-ci il Doqomıs sazişinə görə münaqişə zonasında üç tərəfli sülhməramlı qüvvələr fəaliyyət göstərirdilər. Son hadisələr bəzi gürcü parlamentarilərini bu sazişin ləğvi ilə bağlı çıxışlar etməyə vadar edir. Rusiyanın münaqişədə təsir gücünü zəiflətməyə çalışan Saakaşvili ATƏT-ə müraciət edir. Belə bir zamanda Rusiya prezidenti V.Putin Tbilisiyə getməkdən imtina edir və qeyd edir ki, münaqişələrin yaranmasının başlanğıcı özünü muxtariyyətlərin ləğvi haqqında axmaq qərardan götürür. Bu isə o demək idi ki, Rusiya rəsmi Tbilisini günahkar hesab etməklə beynəlxalq hüquq normalarını pozurdu. Başqa bir dövlətin daxili işlərinə qarışırdı.

Gürcüstan rəsmilərinin bəyanatlarında rusların Transqafqaz yolu vasitəsi ilə osetin separatçılarına yardım göstərməkləri haqqında fikirlər səslənirdi. Bunu əsas tutaraq 19 avqust 2004-cü ildə gürcü hərbi birləşmələri bu yolun yaxınlığındakı bir kəndi tutdular. Lakin gürcülər bu irəliləyişləri davam etdirə bilmirlər. Çünki Qərb hələ gürcüləri cəsarətləndirəcək imkanları verməmişdi. ATƏT və Rusiyanın təzyiqi nəticəsində gürcülər öz qoşun birləşmələrini Cənubi Osetiya yaxınlığından geri çəkdilər. Bu barədə gürcü nazir Baramidze 20 avqust 2004-cü ildə xəbər vermişdi. Qarışıq qüvvələrin komandanı Svyatoslav Nabzdorov gürcü qoşunlarının çıxdığı yerlərdə qarışıq postların və ATƏT müşahidəçilərinin yerləşdirilməsi haqqında məlumatla çıxış edir. İlk baxışda məsələnin həllini tapması görüntüsü yaranır. Amma heç də hər şey göründüyü kimi cərəyan etmir.

23 avqust 2004-cü ildə Fransanın "Liberasyon" jurnalına müsahibə verən Gürcüstan prezidenti Saakaşvili bəyan edir ki, Rusiya Gürcüstana geniş miqyaslı hərbi müdaxiləyə hazırlaşır. Bu narahatlıq ondan irəli gəlirdi ki, Rusiyanın 58-ci ordusu Şimali Osetiyada hərbi təlimlər keçirdi. Gürcüstan prezidentinin bu cür bəyanatlar verməsində bir narahatlıq vardı ki, Qərb Rusiya amilinə kifayət qədər əhəmiyyət vermir. Bununla da ruslarla gürcülər arasında diplomatik müharibənin başlanğıcı qoyulur. 27 avqust 2004-cü ildə Rusiya ilə Gürcüstan bir-birinə qarşı diplomatik ittihamlarla çıxış etdilər. Gürcüstan prezidentinin bir qədər populist çıxışlarının da münaqişənin şiddətlənməsində müəyyən rolu oldu. Saakaşvili çıxışlarının bildirirdi ki, düşmən Gürcüstana hücum edərsə tək ordu ilə deyil bütün xalqla üzləşəcək. Bununla gürcü prezidenti Rusiyanı nə-

zərdə tuturdu. Əslində bu cür çıxışlar rusların əlinə müəyyən bəhanələr verirdi. 1 sentyabr tarixində rus millətçi görüşləri ilə tanınmış deputat Roqozinin başçılığı ilə Duma nümayəndələri Cənubi Osetiyaya gəldilər. Roqozin rus vətəndaşı faktorundan Gürcüstana təsir vasitəsi kimi istifadə etməyi təklif etdi. Buna cavab olaraq gürcü deputat Zviad Dzidziquri Doqomıs sazişlərinin ləğvi ideyasına imza toplandığını bəyan etdi.

2004-cü il yay hərbi kompaniyası vaxtı maraq doğuran məsələlərdən biri də ABŞ-ın mövqeyi idi. Ümumiyyətlə ABŞ artıq Rusiyanın maraq dairələrindən çıxardılması üçün bir plan hazırlamışdı(«Project for New American Century»).(10) Əlbəttə ki, Rusiyanın vurulub çıxarılmalı olduğu regionlardan biri də Cənubi Qafqaz idi. Burada ABŞ iki ölkəyə Azərbaycan və Gürcüstana xüsusi maraq göstərirdi. Bununla belə ABŞ Cənubi Osetiyadakı vəziyyəti yaxından öyrənir və ehtiyyatla hərəkət edirdi. Sanki 2004-cü il hərbi kompaniyası vaxtı amerikalılar Cənubi Osetiyada zahiri kəşfiyyat işi aparırdılar.

Rusya ilə Cənubi Osetiya problemi ilə bağlı Gürcüstan münasibətləri 2006-cı ilin fevralında yenə də kəskinləşdi. Buna səbəb rus sülhməramlılarının maşınının gürcü maşınını vurması oldu. Gürcüstan müdafiə naziri Okruaşvili rusların həddi aşdığını söyləyir. Davam olaraq dünya ictimaiyyətinin diqqətini çəkmək istəyən Nino Burcanadze çıxışlarında tez-tez vurğulayırdı ki, Gürcüstan daim təhdid altında yaşamaqdadır. Gürcüstan parlamentinin müdafiə və milli təhlükəsizlik komissiyasının sədri Qivi Tarqamadze bildirirdi ki, rus sülhməramlıları öz funksiyasını yerinə yetirmədiyi üçün Cənubi Osetiyadan çıxarılmalıdır. Lazım gəldikdə güc belə tətbiq edilməlidir. Gürcüstan parlamentində səslənən bu çıxışların müqabilində qarışıq qüvvələrin komandanı Marat Kulaxmetov sülhməramlıların çıxması üçün siyasi qərarın lazım olduğunu söyləyirdi. Əgər onlara qarşı güc tətbiq olunardısa komandan səlahiyyətlərinə uyğun cavab veriləcəyini bildirirdi.

13 fevral 2006-cı ildə Gürcüstan parlamentinin müdafiə və təhlükəsizlik komissiyasının genişləndirilmiş iclası keçirilir. Bu iclasda çıxış edən Georgiy Xaindrava gürcü deputatlara Rusiyanın Doqomıss sazişlərini pozduğunu bildirdi. Xaindrava eyni zamanda rusları osetinləri silahlamdırmaqda günahlandırırdı. Əsas olaraq Xaindrava 20 sentyabr 2005-ci ildə osetin separatçılarının Tsxinvalidə keçirilmiş paradından danışdı. Həmin paradda osetin separatçıları özlərində olan ağır texnikanı nümayiş etdirmişdilər. Osetinlər bu texnikanı gürcülərdən döyüşlərində aldığını söyləyirdilər. Lakin Xaindrava döyüşlər zamanı gürcülərin belə texnikaya malik olmadığını ifadə edirdi. Xaindravanın Rusiyaya yönəlik ittihamları bununla bitmirdi. Nazir separatçı rejimin müdafiə nazirliyinin Rusiya tərəfindən maliyələşdiyini bildirirdi. Həmçinin ittihamlar içərisində yer alan başqa bir məqam rus zabitlərinin separatçı osetinlərin hərbi təlimlərinə rəhbərlik etməsi idi. Gürcüstan rəhbərliyi osetinlərə Rusiya pasportlarının verilməsini və Rusiyanın Cənubi Osetiyadakı iqtisadi layihələrini siyasi-iqtisadi diversiya sayırdı. Gürcüstan rəhbərlərinin çıxışlarına ruslar özünəməxsus şəkildə cavab verirdilər. Prezident Putin bildirmişdi ki, əgər Qərb Kosovanı tanısa Rusiya Gürcüstandakı separat rejimləri tanıyacaq. 2008-ci ildə Rusiya belə də etdi.

Rusiya ilə qarşılıqlı ittihamlar şəraitində Gürcüstan müdafiə naziri Okruaşvili Cənubi Osetiya separat rejiminin silahlı qüvvələri haqqında 2006-cı ilin məlumatları ilə çıxış etdi: 2,5 min peşakar əsgər və zabit, 2,1min könüllü, 26 tank, 57 BMP, 8 SAU, 19 "iqla" və "strela" qurğusu, 6 ədəd "qrad" qurğusu və minatan, müxtəlif çaplı qurğular.

15 fevral 2006-cı ildə Gürcüstan parlamenti qərar qəbul etdi ki, parlamentin Cənubi Osetiya münaqişəsi üzrə komissiyasına tapşırılsın ki, Doqomıss sazişlərini rusların pozması ilə bağlı müzakirələr aparsın. 17 fevral 2006-cı ildə Rusiya Duması cavab qərara gəldi ki, gürcülər sülhməramlıların fəaliyyətini diskriditasiya edir. Bu isə Rusiya-

nın milli təhlükəsizlik maraqlarına ziddir. Osetin separatçılarına cəsarət verən səbəblərdən biri də məhz Rusiyanın milli təhlükəsizlik anlayışını məqsədli mücərrədləşdirməsi idi.

Vəziyyətin gərginləşməsindən ehtiyyatlanan Gürcüstan prezidenti Cənubi Osetiyadan polis qüvvələrinin çıxarılması qərarını qəbul edir. Gürcülər bununla gərginliyi götürməkdə maraqlı olduqlarını nümayiş etdirdilər. 20 fevral 2006-cı il tarixində Gürcüstan Cənubi Osetiyaya gedən bütün yollar üzərindən blokadanı götürdü. Əslində gürcülərin bu geri çəkilməsində Qərbin təsiri az deyildi. Qərb ruslarla münasibətlərin gərginləşməsində maraqlı deyildi.

Diplomatik sahədə fəaliyyətini davam etdirən gürcülər sülhməramlıların tərkibinin genişləndirilməsini istəyirdilər. Bu məqsədlə Ukraynaya müraciət edilmişdi. Ukrayna isə öz növbəsində bölgəyə sülhməramlılar göndərməyə hazır olduğunu bildirmişdi. Lakin bunun BMT və ATƏT sənədlərinə və mandatına uyğunluğunu şərt qoymuşdu. Osetinlərin separat rejimi bu təklifi düzgün saymadı. Kokoytı bununla əslində Rusiyanın nizamlanmadan uzaqlaşdırıldığını söylədi. Qondarma qurumun xarici işlər naziri Murat Cioyev isə bir qədər də irəli gedərək Ukraynanı əslində Gürcüstana silah göndərməklə vəziyyətin gərginliyinə səbəb olduğunu söylədi. Osetinlər artıq başqa bir diplomatik yol tutmuşdular. Bu yol Rusiyanın tanımasına nail olmaq idi.

2006-cı ilin yayından Gürcüstandakı münaqişələrin həlli ilə bağlı diplomatik fəaliyyətini gücləndirən tərəflərdən biri də ABŞ idi. 2006-cı ilin iyul-avqust aylarında ABŞ-ın Minsk qrupundakı yeni həmsədri Metyu Brayza Cənubi Qafqaz ölkələrinə səfər etdi. Gürcüstanda olduğu zaman diplomat Rusiyanın Gürcüstan münaqişələri ilə bağlı siyasətini kəskin tənqid etdi. Eyni zamanda Brayzanın Gürcüstanın ərazi bütövlüyünü dəstəkləməsi Gürcüstan rəhbərliyinə müəyyən cəsarət verdi. Onun çıxışlarında maraq doğuran başqa bir məqam diplomatın osetinlərin əslində şimalla birləşmək istədiklərini deməsi idi.(11) Amerikalı dilomatın məsələlərə bu cür yanaşması gürcülərin maraqlarına tamamilə uyğun idi. Haşiyəyə çıxaraq onu demək lazımdır ki, Brayzanın belə qətiyyətli mövqe tutması Qarabağ münaqişəsi ilə bağlı daha məqsədə uyğun idi.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, Rusiya Gürcüstandakı münaqişələrdən özünün Cənubi Qafqazda olan maraqlarını müdafiə etmək üçün istifadə edir və hətta bunun üçün müstəqil dövlətin ərazi bütövlüyünü pozmaqdan belə çəkinmir. Rusiyanın bu destruktiv hərəkətləri xeyli müddət gürcü istimai-siyasi mühitində müzakirələrə səbəb olmuşdu. Xüsusi ilə gürcü ekspertləri Cənubi Osetiya sakinlərinin Rusiya vətəndaşlığına qəbul edilməsini ilhaq öncəsi bir tədbir sayırdılar.

Cənubi Osetiya separatçılarının dəstəklənməsi vətəndaşların müdafiəsi arqumentinin üzərində Rusiya mətbuatında işlənilməsi ilə başlandı. Çünki birdən birə separatçıları dəstəkləmək və Gürcüstana intervensiya həyata keçirmək beynəlxalq ictimaiyyətin etirazına səbəb olardı. Osetinlər mətbuatda gürcülərin Doqomıss sazişini faktiki denonsasiya etdiyini söyləməyə başladılar. Doğrudur Gürcüstanda bu sazişin köhnəlməsi haqqında fikirlər səslənmişdi, lakin bu cür yanaşmaların ortaya çıxmasına bilavasitə Rusiyanın hərəkətləri səbəb olmuşdu.

2008-ci il hərbi kompaniyasından bir neçə ay əvvəl Cənubi Osetiyada partlayış nəticəsində iki nəfər Koliyev və Doquzov həlak oldu. Onlardan biri xüsusi xidmət orqanı əməkdaşı, digəri isə keçmiş sülhməramlı idi. Cənubi Osetiya tərəfi bu partlayışın arxasında gürcü xüsusi xidmət orqanlarının dayandığını söyləyirdi. Gürcülərə qarşı səsləndirilən başqa bir ittiham isə osetin anklavlarında polis şöbələri və xüsusi birləşmələrinin çoxaldılması idi.(12)

2008-ci ilin yayında Tbilisi Cənubi Osetiyanın ölkə qanunlarına tabe edilməsi və separatçılıq ocağının ləğv edilməsi istiqamətində bəzi addımlar atdı, Gürcü qoşunları

Sarabuq yüksəkliyi üzərində nəzarəti ələ keçirdilər. Gürcü qoşunlarının İraqda xidmət keçən dəstəsi geri çağırıldı ki, ordu sıraları gücləndirilsin.(14)

2008-ci ilin avqustunda Gürcü-osetin münaqişəsinin yeni dövrü başlandı. Ayın əvvəllərində gürcü-osetin münaqişə zonasında iri həcmli toqquşmalar baş verdi. Avqustun 2-də baş verən atışmada 6 osetin silahlısı öldü və 9 gürcü hərbçisi yaralandı.(15) Tərəflər biri birilərini atəş açmaqda və razılaşmaları pozmaqda ittiham etməyə başladılar. Cənubi Osetiyanın qondarna qurumunun prezidenti bir qədər də irəli gedərək gürcü hərbi birləşmələrinin çıxmayacağı təqdirdə onları vurub çıxaracaqlarını söyləyirdi. Hərbi kompaniya öncəsi Saakaşvili Cənubi Osetiyaya geniş muxtariyyətdən bəhs edən bəyanatlar versə də gərginlik zəifləmədi.

8 avqust 2008-ci ildə günün birinci yarısı ərazi bütövlüyünü təmin etmək məqsədi ilə irəliləyən gürcü qoşunları Tsxinvalinin 70%-ni tuta bildilər. Döyüşlər zamanı osetinlər tərəfdə döyüşən 15 rus sülhməramlısı da həlak oldu. Rusiya tərəfi isə öz növbəsində Doqomis sazişini pozaraq 60 minlik 58-ci ordunun hissələrini müstəqil bir dövlətin ərazisinə yeritdi. 10 avqust tarixində gürcü qoşunları Tsxinvalidın geri atıldı. Gürcü qoşunlarının geri çəkilməsi nəticəsində ruslar Qoriyə qədər irəlilədilər. Rusiya hərbi hava qüvvələri Tbilisi də daxil olmaqla Gürcüstan ərazilərini bombarduman etməyə başladı. Qara dəniz hərbi donanması Gürcüstan limanlarını blokadaya aldı. Daha sonra isə Abxaziya Rusiyanın dəstəyi ilə Abxaz-Gürcü münaqişəsi zonasında hərbi əməliyyatlara başladı. Bütün dünya bunu beynəlxalq hüquqa zidd bir addım kimi qarşıladı və hərbi əməliyyatların dərhal dayandırılmasını tələb etdi.

8-10 avqust tarixlərində münaqişə zonasında vəziyyətin gərginləşməsi ilə bağlı BMT TŞ-si iki dəfə yığışdı. Burada ABŞ-Rusiya ziddiyyətləri özünü göstərdi. Kondaliza Rays Rusiyanı Gürcüstanın ərazi bütövlüyünü pozmağı dayandırmağa çağırdı. Pekin olimpiadasında V.Putin və C.Buş görüşü zamanı Gürcüstandakı münaqişə müzakirə olundu. ABŞ prezidentinin rəsmi nümayəndəsi bəyan etdi ki, ABŞ Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir.(16) 12 avqust 2008-ci ildə Rusiya prezidenti D.Medvedev atəşin dayandırılması haqqında fərman verdi. Fəqət Rusiya tərəfindən atəşin dayandırılması haqqında birtərəfli qərar Gürcüstanı qane etmirdi. Gürcülər avropalıların da imzaladığı bir qarant saziş istəyirdilər. Belə bir şəraitdə növbəti gün Moskvaya Fransa prezidenti Sarkozi səfər etdi. Rusiya prezidenti ilə görüş zamanı münaqişənin həllinin 6 mərhələli planı razılaşdırıldı. Birinci mərhələdə silah tətbiqindən imtina edilirdi. Sonra humanitar köməyin çatdırılması üçün imkan verilirdi. Növbəti mərhələdə gürcü qoşunları dislokasiya yerlərinə qayıdırdılar. Rus qoşunları isə münaqişə öncəsi mövqelərinə dönürdülər. Nəhayət axırıncı mərhələdə status məsələsi müzakirə olunurdu. Rusiya prezidenti ilə müzakirədən sonra Sarkozi Gürcüstana gələrək Saakaşvili ilə görüşdü. Gürcüstan razılaşmanın axırıncı punktları istisna olmaqla onu qəbul edib. Razılaşma mətnindən Abxaziya və Cənubi Osetiyanın statusunun beynəlxalq müzakirəsi bəndi Gürcüstanın təkidi ilə çıxarıldı. Daha sonra razılaşmaya əlavələr edildi. Əlavələrə görə bölgəyə 200 beynəlxalq müşahidəçi gəlməli idi. Sonda Qərbin güclü təzyiqləri və Gürcü millətinin dirənişi nəticəsində sonda Rusiya bu intervensiyanı dayandirmalı oldu.

Hətta rus mətbuatının özündə belə Osetin-gürcü münaqişəsinin eskalasiyasının Rusiya tərəfindən planlaşdırılması fikrləri dolayısı ilə səslənməkdə idi. Son hadisələr nəticəsində Cənubi Osetya münaqişəsi Rusiya-Gürcüstan münaqişəsinə çevrilmiş oldu və müstəqil bir dövlətin ərazi bütövlüyü pozulmuş oldu. Separatçıların hərəkətlərinin müxtəlif cür hüquqi qiymətləndirilməsi bu fəsadın ortaya çıxmasına az təsir etmədi.

Gürcüstandakı son hadisələr onu göstərdi ki, separat xarakterli münaqişələr dövlətlərarası konfiliktə çevrildikdən sonra beynəlxalq gərginliyə də gətirib çıxara bilər. Müharibənin bitmsəində Fransa prezidenti N.Sarkozinin xidməti danılmaz oldu. Məhz

onun hazırladığı sülh planına əsasən atəşkəs elan olundu. Bu plan NATO-dakı müttəfiqlər və Yaponya ilə də razılaşdırılmışdı. Plana əsasən atəş dərhal dayandırılmalı, rus və gürcü qoşunları əvvəlki mövqelərinə çəkilməli idi. Hərbi əməliyyatlar Fransa prezidenti N.Sarkazinin vasitəçiliyi ilə dayanmış olsa da, 27 avqust 2008-ci il tarixində Rusiyanın separatçı rejimlərin müstəqilliyini tanıması, 9 sentyabr 2008-ci ildə isə separatçı rejimlərlə diplomatik münasibətlər qurması defakto olaraq suveren bir dövlətin ərazi bütövlüyünün pozulması və aqressiya nəticəsində işğalı demək idi.

Beləliklə osetin-gürcü münaqişəsi haqqında onu demək olar ki, bu problem hələ də öz həllini gözləməkdədir. Osetin-gürcü münaqişəsinin digər analoji konfliktlərlə oxşar və fərqli xüsusiyyətləri vardır. Oxşarlıq əsasən ondan ibarətdir ki, xarakter etibarilə bu münaqişə separatçılıqla bağlıdır. Xalqın öz müqəddəratını təyin etmə haqqının gündəmə gətirilməsi münaqişənin başlanması üçün bəhanə oldu. Sonradan isə münaqişədən istifadə etmək üçün böyük dövlətlərin maraqlar yarışması başlandı. Bu maraqlar yarışmasında Rusiya dominant mövqeyi əldən verməmək üçün osetin separatçılarının dəstəklənməsi mövqeyini tutdu. T.V.Nadarişvilinin fikricə Gürcüstanda alovlanan bu münaqişələr Rusiyanın Gürcüstana qarşı irticasıdır. Problemin kökündə isə Rusiya, ABŞ, Türkiyə və s. iri dövlətlərin regionda mövqelərinin toqquşması durur.(13, 5)

Osetin-gürcü münaqişəsini digərilərindən fərqləndirən cəhət isə münaqişənin olmasına baxmayaraq qarışıq məskunlaşmanın mövcudluğudur. Yəni separat rejimin nəzarəti altında olan bölgələrdə gürcülərin, Gürcüstanın nəzarət etdiyi bölgələrdə isə osetinlər yaşamasıdır. Gürcülər öz növbəsində vurğulayırlar ki, osetinlərin mədəni və ictimai inkişafı Cənubi Osetiyada Şimali Osetiyadan daha yaxşı gedirdi. Məqalə müəllifi Gürcüstanda olarkən münaqişə üzrə mütəxəssis professor Malxaz Matseberidze ilə görüşmüş və yerli ekspert Cənubi Osetiyada Şimali Osetyadan fərqli olaraq osetin məktəblərinin mövcudluğunu gürcü tərəfinin bir arqumenti kimi göstərmişdi. Maraqlıdır ki, gürcü tərəfi Saakaşvili hakimiyyətə gəldikdən sonra özünün nəzarət etdiyi ərazilərdə Sanakoyevin başçılığı ilə bir administrasiya da təşkil olunmuş, ancaq separat rejimə osetinlər üçün alternativ ola bilməmişdi. Cənubi Osetiya sepratçılığının əslində Rusiya geosiyasətin vasitəsinə çevrildiyini Gürcüstan ərazilərinin ilhaqı sübut etdi.

## *ƏDƏBƏYYAT*

1.Г.Д.Тогошвили, Из истории грузино-осетинских взаимо-отношений (с древнейших времен до конца XIV века). Автореферат диссертационной работы, представленной на соискание ученей степени кандидата исторических наук, Издателство Академии наук Грузинской ССР,Тбилиси-1959

2.Чернявский С. Кавказский вектор Российской дипломатии. Центральная Азия и Кавказ №5(11)2000

3.İnformation zur politischen Bildung, Kaukasus Region, Lübeck 2003

*4.Олег Лукин* Межнациональные конфликты в Грузии (1989—1992гг. http://www.voinenet.ru/index.php?aid=9559

*5.Источник: Дипломатический вестник МИД РФ. 1992. №13-14*

*6.Экперты "Исследовательского центра CHARTA CAUCASICA* http://www.caucasica.org

7.Приложение №1 к решению СКК от 6 июня 1994 года. Об основных принципах деятельности военных контингентов и групп военных наблюдателей, предназначенных для нормализации ситуации в зоне грузино-осетинского конфликта. МИНИСТЕРСТВО ИНОСТРАННЫХ ДЕЛ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ 1270-04-06-2004

8.СОГЛАШЕНИЕ "о дальнейшем развитии процесса мирного урегулирования грузино-осетинского конфликта и о Смешанной контрольной комиссии (СКК) *Текущий архив МВС РЮО. Ксерокопия с подлинника* http://www.caucasica.org/

9.Pain E.A. Contagious Ethnic Conflicts and Border Disputes along Russian Sobsern Fank//Russia. The Caucasus and Central Asia. The rest Security Environment. N-V. 1991

10.http://www.inforos.ru

11.Андрей Битаров: «Грузия фактически денонсировала Дагомысские соглашения и находится в состоянии войны с Южной Осетией» http://cominf.org

12.Надарешвили Т.В. Заговор против Грузии. Тбилиси 2002

13.See Otyrba "War in Abkhazia", стр. 287, BBC Monitoring Service: Former USSR, 25 July 1992

14."Новые известия" 7 июля 2008

15.www.newsru.com

16.Артемьев А. Дипломатическое мычание// газета.ру.11 августа 2008 г. www.gazeta.ru

**РАУФ ГАСАНОВ**

## ГРУЗИНО-ОСЕТИНКИЙ КОНФЛИКТ

В данной статье исследуется -грузино-осетинкий конфликт. В статье изучена история взаимоотношения грузин и осетин. Также автор статьи вник в исторический процесс этногенеза осетинского народа, предлагая читателю самому в том числе размыслить об истоках этого противоборства. В статье изучается взаимоотношения грузин и осетин в процессе государственного строительства. Начиная с древних времен в плоть наших дней между этими этносами взаимоотношения были не однозначными. Автор статьи особенно внимательно изучает внешний фактор влияющий на конфликт, в особенности российское влияние. По его мнению Россия имеет интересы в процессе конфликта. Этому свидетельствует агрессия 2008-го года со стороны России. Но также националистический настрой среди части грузин является негативным фактором, о чем четко говорит автор статьи.

**RAUF HASANOV**

## GEORGIA-OSSETIA CONFLICT

The conflict among Georgia and Ossetia is investigated in this very article. The history of interaction among Georgia and Ossetia is examined in this article. Also the author of the article has entered into the historical process of the Ossetia's ethnogenesis, proposing to the reader himself to ponder over the origin of this confrontation. The interaction among Georgia and Ossetia in the process of state construction is studied in this article. Starting with the earlier days up to nowadays, the relation among these two ethnics was complex. The article`s author scrutinizes the external factor, influencing on the conflict, especially the Russians effect on it. According to his opinion, the Russian Federation is interested in the process of the conflict. The aggression of the year 2008 on the part of Russia testifies about this. Also the nationalistic spirits between some Georgians is a negative factor, and the author of the article clearly says about this.

***Rəyçilər: t.e.d.Ə.İ.Muxtarova, t.e.d.Q.Ə.Əliyev.***

***BDU-nun Tarix fakültəsi Türk və Qafqaz xalqları tarixi kafedrasının 03 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***